BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2012

UOT 737

# AZƏRBAYCAN NUMİZMATİKASININ XARİCİ DÖVRÜ ƏDƏBİYYATDA YERİ VƏ ROLU

**M.İ.VƏLİYEVA**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*aylin70@mail.ru*

*Dünyanın bir çox ölkələrində hələ XIX əsrin əvvəllərindən arxeoloji qazıntıların nəticəsində tapılan numizmatik materiallar haqqında elmi və elmi-publisistik buraxılışlarda müxtəlif vaxtlarda ayrı-ayrı məqalələr dərc olunmağa başlanmışdır.*

*Bu məqalədə də xaricdə dərc olunan dərgilərdə Azərbaycan zərbxanalarında tanınmış hökmdarların adlarından zərb edilən sikkələr haqqında geniş numizmatik məlumatlar vardır.*

*Azərbaycanın numizmatik materiallarının öyrənilməsində B.A.Dorn, İ. de Bartolomey, M.R.Broome və digər əcnəbi alimlərin böyük əməyi var. Maraqlıdır ki, həmin alimlərin əsərlərində davamlı olaraq Şərq ölkələrinin sikkə nümunələri və dəfinələri haqqında çox ciddi araşdırmalar özünəməxsus yer tutmuşdur.*

**Açar sözlər:** Numizmatik, elmi dərgilər, pul, analiz, gümüş

Tanınmış dərgilərdən “Asiatische Museum der Kalserlichen” (12), “The Arhaelogical Museum of the American University of Beirut” (13), “Memories de la societe imperiale D`archeolocie” (18) və s. qeyd etmək lazımdır.

1851-ci ildə Parisdə çap olunan “Memories de la societe imperiale D`archeolocie de Persie” (19) dərgisinin V cildində numizmatika elminin tarixində xüsusi yeri olan M.Sorenin Hülakilərin sikkə zərbinə həsr olunan məqaləsində, əsasən Gürcüstan, daha dəqiq Tiflis və Təbrizdən aşkar olunan monqol hökmdarlarından Münke, Hülaki, Abaqa, Arqun, Olcaytu, Əbu Səid, Satibəy, Suleyman, Nuşirəvan xanın adlarından zərb olunan gümüş dirhəmlərin bəziləri haqqında geniş məlumat vardır. O cümlədən, Hülaki xanın adından Təbrizdə 655-ci hicri ilində (1277-1278-ci illər) dövriyyədə olan bir gümüş sikkənin təsviri Azərbaycan numizmatika elmi üçün müəyyən maraq doğurur. Belə ki, sikkənin aversində Hülaki xanın adı bütün titulları ilə aşağıdakı kimi zərb olunmuşdur: “Ədalətli və ən uca xaqan Hülaki, reversində kəlimə və Əliyyən Vəliyyullah adı, zərb yeri Təbriz, tarixi-685 rəqəmlə göstərilmişdir”. XX əsrdə Azərbaycan numizmatika elmində Hülaki xaqanın şiəlik rəmzlərinin əsasını təşkil edən bu cür epitetin, yəni Əliyyən Vəliyyullah adının olması

faktı göstərilməmişdir. Bu, sikkə zərbi tarixində yenilikdir. Eyni hökmdarın adından Ərbildə, Tiflisdə zərb edilib, dövriyyəyə buraxılan sikkələrin təsvirində də eynilə bu cür epitetlər öz əksini tapmışdır. Bununla da monqol hökmdarı Hülaki xanın adından zərb edilən erkən sikkələr onun dövləti yaradarkən şiəliyi dövlət dini səviyyəsinə çatdırması faktı aydınlaşır. Lakin bu cür sikkələr faiz nisbətində azlıq təşkil edir (18, №175, 313).

Eyni dərgidə Şirvan şahlarından II Xəlilullah və II İbrahimin adlarından yerli zərbxanalarda buraxılan sikkələr, həmçinin monqol hökmdarı Şadi-bəyin tərəfindən Şamaxıda, Bakuyyada, Dərbənddə dövriyyədə olan qısamüddətli sikkələr haqqında geniş məlumatlar vardır (18, 316-317).

Azərbaycan numizmatika elmində monqol mənşəli Qızıl Orda hökmdarı Şadi-bəyin Şirvanın mərkəzi şəhərlərində zərb etdirdiyi və dövriyyəyə buraxdığı sikkələr haqqında çox az bilgi verilib (8, t. II. 120-121).

Burada onların tapıldığı yer haqqında məlumat olmasa da, Parisdəki muzey materiallarına əsasən, kifayət qədər bilgi qeyd olunub. Digər sikkə nümunələri sırasında Ağqoyunlu hökmdarlarından Qara Yuluq Osmanın, Gahangirin, Yaqub bəyin adlarından zərb edilən bəzi sikkələr haqqında müəyyən qədər maraqlı məlumatlar yazılıb (18, №183-186, 317-318,). Belə ki, Ağqoyunlu hökmdarı Yaqub bəyin iki – bəy və xan titulu sikkələrdə öz əksini tapmışdır.

Digər hökmdar Cahangirin adından zərb edilən sikkənin üz tərəfində – İsfahanın xanı Cahangir kimi zərb edilmişdir. Ağqoyunlu hökmdarlarının tarixində bu cür ştempel-möhürlə zərb edilən sikkə elmə məlum deyildir. Görünür, bu səbəbdən də Cahangirin adı qarşısında sual işarəsi qoyulub (18, №184, 317).

Dərginin digər bir araşdırmasında xüsusi olaraq Səfəvi hökmdarlarından I İsmayılla I Təhmasibin adından Mazandaranda, Əfşarlardan Nadir və İbrahimin, Qacarlardan Ağa Məhəmməd şahın, Fətəli şahın, Əli şahın, Məhəmməd şahın adlarından zərb edilən gümüş sikkələr haqqında geniş numizmatik məlumatlar vardır (18, 322-324).

Qacar hökmdarı Fətəli şahın 1242 hicri ilində (1826-1827-ci illərdə) İsfahanda zərb edilən gümüş sikkənin üzərində hökmdar möhtəşəm bir taxtda bardaş qurmuş şəkildə, başında tac və bütün hakimiyyət rəmzləri ilə birlikdə göstərilmişdi (179, 401). Qeyd etmək lazımdır ki, bu cür dördkünc taxt üzərində əyləşmiş hökmdar obrazının ilk dəfə Əmir Teymurun şərəfinə çəkilməsi faktı elmə məlumdur (3, 110, şək.14).

Fətəli şahın obrazı da yalnız üz cizgiləri və baş geyimi tac fərqi olmaqla bu sikkələrdə zərb edilmişdir. Onun adından vurulan digər bir sikkənin aversində Fətəli şah Qacar "Uca Sultan Şahənşah" titulu göstərilməklə zərb olunmuşdur. Burada hökmdarın titulu göstərilərkən onun səcərəsi, yəni Qacarlardan olması taxt-tacın ən uca sultanı və "ən ibn ən" söz birləşməsi kimi şahənşah – titulu ilə onların kökünün qədim Sasanilərlə qohumluq əlaqəsini, həm də davamçısı olması qısaldılmış şəkildə, xüsusi olaraq IV sətirdə zərb

etdirilmişdir. Bununla da Qacarların İran taxt-tacının sahibi, həm də türk mənşəli olmaları sikkənin ən geniş məlumat mənbəyi olan aversdə mükəmməl süls xətti ilə heç bir kalliqrafik səhv olmadan zərb edilmişdir.

Dünya numizmatika elmində B.A.Dorn adlı alman aliminin Azərbaycanın numizmatik materiallarının öyrənilməsində əvəzedilməz yeri vardır (15). Maraqlıdır ki, B.A.Dornun yuxarıda göstərilən elmi dərgilərdə demək olar ki, davamlı olaraq Şərq ölkələrinin sikkə nümunələri və dəfinələri haqqında çox ciddi elmi əsərləri çap olunmuşdur (15; 16; 17). Onun dəyərli məqalələri, kataloqları sırasında Azərbaycanın Parfiyanın təsiri altında və Sasanilər imperiyasının tərkibində olduğu zaman sikkə nominalları haqqında olan işlərini xüsusilə qeyd etmək lazımdır. B.A.Dornun numizmatika sahəsindəki elmi araşdırmaları dünyanın bir çox ölkələrində, o cümlədən Sankt-Peterburqda, Parisdə, Berlində çap olunmuşdur. Belə dəyərli əsərlərdən bir neçəsi hərbçi general məşhur kolleksioner İ.de Bartolomeyin numizmatik kolleksiyası haqqındadır (14). Bu əsərlər Sankt-Peterburqda İmperator Elmlər Akademiyası yanında fəaliyyət göstərən Asiya muzeyinin materialları arasında dərc olunmuşdur. Məsələn, “Collection de monnais Sassanides de beu le Lieutenant-ceneral I. de Bartolomalin” məqaləsi Sankt-Peterburqda “Melanges Asiatiques de S` Akademie Imperiale des sciences” adlı Avropada fəaliyyət göstərdiyi illərdə tanınan və oxunan sanballı elmi jurnalda dərc olunmuşdur. Araşdırmamız nəticəsində yalnız Parfiya və Sasanilərə aid olan sikkə nominalları haqqında iyirmi bir məqalə təkcə B.A.Dorn tərəfindən elmi ictimaiyyətə təqdim olunmuşdur. Bu məqalələrdə Rusiya imperiyasında münz-kabinetlərdə – numizmatik fondlarda saxlanılan sikkələr haqqında kifayət qədər məlumatlar vardır. Alimin əsas müddəalarından biri də Cənubi Qafqaz ərazilərinin e.ə I əsrin ortalarından başlayaraq Parfiyanın təsiri altına düşməsi, hüquqi baxımdan burada, xüsusilə Azərbaycan və müasir Ermənistan ərazisində Parfiya pullarının əsas tədavül vasitəsi olması göstərilmişdir. Təxminən 100 ildən sonra Azərbaycanda aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilən Parfiya sikkələri V.Dornun göstərilən mülahizələrinin doğruluğunu təsdiq etmişdir. (1, 75; 3, 41; 4, 9, 27; 5, 20-21; 7, 134 ; 11, 458).

Parfiya sikkələri, ümumilikdə sikkə sistemi və pul dövriyyəsi Cənubi Qafqazda o qədər populyar olmuşlar ki, hətta bu pullara çatışmazlıq olduqda belə onların saxtaları yerli zərbxanalarda hazırlanaraq dövriyyəyə buraxılırdılar.

Azərbaycan ərazisində, əsasən II Mitridatın adından zərb edilən Parfiya sikkələri Naxçıvanda (Xaraba – Gilandan), Cəlilabadda, Bərdədə (Şatırlıdan), İsmayıllıda (Nyüdidən), Şamaxıda (Çuxur-Yurddan) və Füzulidə (Horadizdən) tapılan dəfinələrdə təyin edilmişdir.

Xüsusi qeyd etmək lazımdır ki, yuxarıda qeyd etdiyimiz saxta Parfiya sikkələri bu dövlətin tərkibinə daxil olan digər yerlərdə aşkar edilməmişdir. Yalnız Azərbaycanda qeydə alınan bu fakt, əslində, belə pulların geniş yayılmasında əhali tərəfindən tədavül vasitəsi kimi qəbul edilməsindən və onlara olan güclü tələbatdan irəli gəlir. Digər tərəfdən Azərbaycanın pul dövriyyəsi

tarixində ilk dəfə saxta sikkə nümunələri də məhz Mitridatın adından vurulub. İlk belə tapıntı Çuxur-Yurddan aşkar edilmişdir (9, t. 1, 124).

Sikkənin saxta olmasını sübut edən əsas əlamət onun mis qatla örtülməsidir. Misdən istifadə olunmanın əsas səbəbi belə saxta sikkənin əsl çəkidən az, yəni 2,48 qr. olması ilə bağlı olmuşdur. Parfiya sikkələri sırasında II Mitridatdan sonra II, III, IV Fraatın adından buraxılan pul nominallarıdır. Bu pul nominalları Mingəçevirdən, Qubadan, Bərdədən, Biləsuvardan aşkar edilmişdir. Bizim eranın I əsrində Azərbaycanda, bütövlükdə Qafqazda Parfiya hökmdarı Qotarzın sikkələri geniş yayılır. Belə sikkələr Şamaxıda – Çuxur-Yurddan, Küdrüdən, Xınıslıdan, Çalovdan, İsmayıllıda- Kalağadan, Qəbələdən, Mingəçevirdən aşkar edilən qəbir abidələrindən, Gəncə şəhər yerindən, Qazaxdan – Toprax-qaladan, Əli Bayramlıdan və digər yerlərdən aşkar edilmişdir.

Beləliklə, B.A.Dornun Parfiya pul sisteminin Cənubi Qafqaz ərazisində dövriyyəsi, rolu, dəyəri haqqında olan və onun dövründə yalnız muzey fondlarında saxlanılan, dəqiq topoqrafik məlumatları olmayan ayrı-ayrı sikkə nümunələrinə əsaslanırdısa, arxeoloji tədqiqatlar sayəsində əldə edilən numizmatik materiallar daha dəqiq elmi nəticələrin əldə edilməsində əsas rol oynamışdır.

Araşdırdığımız mövzu üzrə Fransanın Sarbon Universitetinin və Milli Elm Mərkəzinin tərkibində uzun illər fəaliyyət göstərən “Studia Iranica” adlı məcmuənin bəzi saylarında müəyyən dəyərli qeydlər vardır (20). 1984-cü ildə çap olunmuş bu məcmuənin 13-cü cildində müəlliflər heyəti tərəfindən Azərbaycanın Elxanilər dövründə fəaliyyət göstərən bəzi zərbxanaları haqqında olan faktoloji materiallar və elmi analizlər diqqətimizi cəlb etmişdi. Xüsusi qeyd etmək lazımdır ki, məcmuənin bu sayının hazırlanmasında bir çox məşhur numizmatlar iştirak etmişlər.

Bunlardan M.F.Gignua, M.X.Adler, P.Bernard, C.Cahen, G.Lazard və başqalarının adlarını qeyd etmək olar (20).

Bu sayda Elxanilərin tarixinə və numizmatikasına həsr olunan geniş məqalədə müəlliflər Azərbaycan numizmatikasında dəqiqliklə lokallaşdirilmayan “Tel-Aras” adlı zərbxana haqqında müəyyən mülahizələr irəli sürmüşlər.

Elxani hökmdarı Əbu-Səidin adından 716-736 hicri illəri (1316-1335-ci illər) zərb edilən və Sarbon Universitetinin mərkəzi muzeyinin numizmatika fondunda yerləşən gümüş dirhəmlərin bəziləri “Tel-Aras” adlı Azərbaycan zərbxanasında zərb edilmişlər. Müəlliflər bu qrupa daxil olan sikkələri E tipi altında təqdim etmişlər. Bu tipdə olan sikkələrin çəkisi 2,782 qr. olan ikiqat dirhəmlərdir.

M.R.Broome adlı müəllif sikkələrin üzərində olan “Tel-Aras”ın Naxçıvan ərazisində Araz çayı yaxınlığında yerləşən bir zərbxana ilə eyni olduğunu həm toponumik, həm də onomastik təhlillə sübut edir (20, t. 13, 58-59).

Müəllif “Tel-Aras” adlı zərbxananın Azərbaycan ərazisində iki yerdə yerləşməsi ehtimalını irəli sürmüşdü. Birinci ehtimala əsasən, «Tel-Aras» adlı

zərbxana Naxçıvanda, ikinciyə görə isə Arazbari adı ilə tanınan yerdə (indiki Sabirabad) ola biləcəyini güman edir. Müəllif «Tel-Aras» zərbxanasının Naxçıvanın Təbrizə yaxın olan yerlərində yerləşə biləcəyini xüsusi qeyd edir, başqa bir nəzəriyyəyə əsasən, həmin zərbxananın ayrıca bir mülk olduğunu və son orta əsrlərdə qısamüddətli fəaliyyət göstərməsini bildirir. Azərbaycan numizmatika elmində "Tel-Aras" adlı zərbxananın Suqovuşana yaxın bir yerdə olması və yaxud indiki Biləsuvar, Beyləqan yaxınlığında yerləşməsi haqqında müəyyən fikirlər vardır (6, 25-30; 8, t. 2, 50-52).

Digər bir maraqlı fakt Azərbaycan numizmatikasında və tarixində adı çəkilməyən Elxani hökmdarı Kəbir şahın sikkələri haqqındadır. Onun adından Bazar, Təbriz, Kirman, Kaşan, Cur-Buzurq, Yəzddə 738 h. ilində (1340-1341-ci illər) zərb edilən ikiqat dirhəmlərin orta çəkisi 2,419-2,279 qr. aralarındadır. Dirhəmlərin çəkisində olan fərq 0,020-30 milliqrama qədərdir.

Müəlliflər Kəbir şahın sirazlı olmasını və çox vaxt sikkələrin hökmdar Süleymanın adından (1340-1345-ci illər) vurulmasını qeyd edirlər (11, 72-73).

Göstərilən zərbxanalar sırasında "Bazar" adı altında vurulan sikkələrin də Mil-Muğan arasında ola bilməsi haqqında Azərbaycan numizmatika elmində müəyyən mülahizələr mövcuddur.

Belə ki, keçən əsrin 60-cı illərində ilk dəfə Elxanilərin sikkələrinə həsr edilən əsərində M.Ə.Seyfəddini XIV əsrdə Azərbaycanda iki belə adda zərbxananın – Bazar-Bulaq və Milli-Bazar olduğunu qeyd edərək, onlar haqqında heç bir əlyazmada məlumat olmadığını yazmış və özünün ehtimallarına görə, hər iki zərbxananın Cənubi Qafqazda, Beyləqanda yerləşməsi haqqında fikir yürütmüşdür (10, 192).

Adıçəkilən əsərdə Cahan Timurun (1339-1340-cı illər) adından yalnız bir ədəd Ərzincanda zərb edilən dirhəm haqqında məlumat vardı. Araşdırdığımız məcmuədə Cahan Timurun adından həm Anadoluda, Hillədə, həm də Bəsrədə zərb edilən sikkələr haqqında qısa məlumatlar verilib. Dirhəmlər 740 hicri ilində (1339-cu il) 1, 711, 1,810 qramlar arasındadır. Bu sikkələrin Azərbaycan numizmatikası üçün yeniliyi onların Olcaytu Məhəmmədin adından zərb edilən sikkələr ilə eyni tipdə olmaları, ancaq tərkiblərindəki gümüşün 75 faizi qədər çatdırılmasıdır.

Eynilə Tuqa Timurun adından bir ədəd Samsunda 1338-1339-cu illərdə zərb edilən gümüş dirhəm haqqında məlumat verilmişdir (11, 198).

"Studia Iranica" adlı məcmuədə isə bildirilir ki, o, 1336-1353-cü ildə Xorasanda hakimiyyətə gəlir, sonra Curcan və Mazandaranı idarə etmək hüququ əldə edir. Zaman-zaman hakimiyyət iddiasında olan Cəlairilərlə mübarizədə qısamüddətli qələbə çalaraq, həm də Təbrizdə sikkələr zərb etdirmişdi (20, 98-100).

## ƏDƏBİYYAT


1. Голенко К.В., Раджабли А.М. Али-Байрамлинский клад и некоторые вопросы обращения парфянских монет в Закавказье. Вестник Древней Истории, 1975, № 2, с. 71-93.
2. Тамерлан Ж. Ру. Москва: Мол. Гвардия, 2007, 259 с.
3. Зограф А.Н. Распространение находок античных монет на Кавказе // Труды отд. Нумизматики Гос. Эрмитажа, т. 1, Ленинград, 1945, с. 29-86
4. Османов Ф.Л. Раскопки античного некрополя у села Нюди // Археологические открытия, 1972 года, Москва, Наука, 1973, с. 441-442
5. Пахомов Е.А.Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. IX. Баку: Наука, 1966, 124 с.
6. Пиркулиева Г.А. Монетная система государства Джелаиридов. Материалы научной конференции аспирантов Ак. наук. , Баку: 1993, с. 124-126
7. Расулова М.М. Данные нумизматики о связях Кавказской Албании с Парфией (II-I в. до н.э) // Культурные взаимосвязи народов Средней Азии и Кавказа с окружающим миром в древности и средновековье. Тезиси докл. конф. Москва: 1981, с. 150-155.
8. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XIV-XV вв. II книга. Баку: Элм, 1981, 246 с.
9. Сейфеддини М.А., Бабаев И.А., Расулова М.М., Алиев З.М. и др. Нумизматика Азербайджана. Т. I. Баку: Элм, 1998, 197 с.
10. Сейфеддини М.А. Монеты ильханов XIV века. Баку: АН Азерб. ССР, 1968, 220 с.
11. Халилов Д.Ж. , Оруджов А., Алиев А. Древняя Шемаха // Археологические открытия. М.: 1974, с. 58-68
12. Asiatische Museum der Kalserlichen Akademie der Wissensenaften.ru. St.Petersburg: Petersburg, 1846, 776 p.
13. Baramki D. The Arhaeological Museum of the American University of Beirut Beirut: American University of Beirut , 1967, 100 p.
14. Bartholomaei I. Letters numismatics. Bruselles, London: 1861, 20 p.
15. Dorn B. Nova Suplemento ad resensionem Numorum Muhammedanorum Edit Bernard Dorn, Petropoli, 1855, 451 p.
16. Dorn B. Das Asiatische Museum der Kalserlichen Akademie der Wissench aften. zu. St. Petersburg: 1846, 766 p.
17. Dorn B. Collection de monnais Sassanides de beu le Lieutenant-general I. de Bartollomai.- Melanqes asiatiques de Akademie Imperiale des sciences - vol. IX. St.Petersburq: 1873, p. 28-33
18. Memories de la societe imperiale D`archeolocie de Persie (yournal). 1838, №175, 313 p.
19. Memories de la sosiete imperiale arceologie de Perse: Lettre a S.E. Mr. le Conscille d`e tot actuel de Fraehn sur les exemplaires inedits de la collection des medalles orientales de Mr. Soret. Vol.V. St.Petersburq: 1851, p. 21-25.
20. Studia Iranika. tome 13. 1984, 117 p.

## АЗЕРБАЙДЖАНСКАЯ НУМИЗМАТИКА В ЗАРУБЕЖНЫХ ПЕРИОДИЧЕСКИХ ИЗДАНИЯХ

**М.И.ВЕЛИЕВА**

### РЕЗЮМЕ

В статье автором рассмотрены некоторые зарубежные издания, в которых опубликованы ценные научные изыскания, касающиеся азербайджанской нумизматики. Отмечается, что в зарубежных изданиях проводился нумизматический анализ денежных единиц государства Эльханидов, их метрологическое, иконографическое исследование, при которых выявлены имена ранее неизвестных правителей, также локализованы названия мест, считавшиеся в науке дискуссионными.

**Ключевые слова:** нумизмат, деньги, научные издания, анализ, серебро

## THE PLACE AND THE ROLE OF AZERBAIJAN NUMISMATICS IN FOREIGN PERIODICALS

**M.I.VALIYEVA**

### SUMMARY

The article studies valuable scientific researches of the Azerbaijan numismatics published in foreign periodicals journals it is noted that foreign editions have illustrated numismatic analysis of the monetary units of the Elkhanids state, their metrological, iconographic study, which reveal the names of priorly unknown state leaders and localize names of places, debatable in science.

**Key words**: Numismatics, foreing journals, monetary, analysis, silver